# Dövlətlərin ekoloji problemlərə yanaşmalarının fəlsəfi təhlili

**Faruk Kurt**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** humanist30@bk.ru

**Rəyçilər:** f.ü.e.d. prof. R.N. Aslanova,
f.ü.f.d., dos. Q.C. Mürşüdlü

**Açar sözlər:** ekologiya, ekoloji böhran, Roma klubu, Stokholm konfransı, Kioto protokolu, davamlı inkişaf konsepsiyası

**Ключевые слова:** экология, экологический кризис, Римский клуб, Стокгольмская конференция, Киотский протокол, Концепция устойчивого развития

**Key words:** Environment, Ecological crisis, Rome Club, Stockholm Conference, Kyoto Protocol, Sustainable Development Concept

Ətraf mühitə dair problemlərin, ekoloji böhran halına çevrilməsi, ondan sonrakı prosesdə də, dövlətlərin gündəminə yerləşməsi; Digər bir ifadəylə, ekoloji problemlərin qloballaşması faktı və kütlələrin, insanların birgə taleyini maraqlandıran problemlərlə məşğul olmaqdan uzaqlaşmış olması həqiqəti ilə birlikdə, 1970-ci illərin məhsulu olaraq ortaya çıxmış bir haldır.

1969-cu ildə Birləşmiş Millətlər Təşkilatının Baş Katibi Uthantın dövlətləri ekoloji problemlər qarşısında bərabər hərəkət etməyə çağırması sonra 1972-ci ildə Roma Klubuna Forrester və Medouz tərəfindən təqdim edilən "Artım həddi" adlı məruzəsi, dünyada böyük rezonans doğurdu. Məruzənin müəllifləri qlobal problemlərin vəziyyətinin kəskin surətdə pisləşməsi ilə əlaqədar təcili olaraq ekoloji və iqtisadi sabitləşmə tədbirləri həyata keçirməyi, iqtisadi artımdan qlobal tarazlığa keçidi tələb edirdilər [1, s. 202].

Roma Klubunun aparmış olduğu bu işdə "World 3" adlı bir model istifadə edilməklə qlobal iqtisadi sistemin beş alt sistemi (başlığı) olan, əhali, sənaye istehsalı, ərzaq, bərpa olunmayan ehtiyatlar və ətraf mühitin çirklənməsi kimi beş əsas dəyişkən arasındakı qarşılıqlı təsiri açıqlamağa çalışır və bunların bir-biri ilə olan əlaqələri araşdırılmışdır [5, 311].

Araşdırmanın zaman miqyası 1900-cu ildən 2100-cü ilə qədər olacaq şəkildə müəyyənləşdirilmişdir. Bu hesabata görə qlobal trendlərin bu sürətlə davam etməsi lazımi sənaye mənada, istərsə də əhali mənasında təxmin edilməyəcək nəticələr doğuracaqdır. Bu səbəbdən əhali artımının təbii ehtiyatlar üzərində yaratdığı böyük təzyiqə görə dünya önümüzdəki 100 il içərisində inkişafın sərhədlərinə gəlib çatmış olacaq. Başqa sözlə, bəhsi keçən bu beş trend təbii inkişafın önünə keçdiyi təqdirdə dünya daşıma qabiliyyətinin çox üstünə çıxacaq və ciddi təhdidlərlə qarşı-qarşıya qalacaqdır [1, s. 203].

"Roma Klubu"nun "Tədqiqat proyekti" (1977) və onun prezidenti A. Peççeinin "İnsan keyfiyyətləri" əsəri (1980) insan varlığının dəyər və keyfiyyətinə həsr olunmuşdur. Her iki işdə "insanın keyfiyyətinin yaxşılaşdırılması" məsələsi ön plana çıxarılmışdı. Əsas məsələ kimi insan tələbatlarının ödənilməsi deyil, insanın özünün inkişafı götürülürdü. Bunun üçün insanın keyfiyyətcə inkişaf etdirilməsi, özgələşmə, qapalılıq, eqoizm, öz mənfəətini güdmək kimi hissləri aradan qaldırılmalıdır. İnsan cəmiyyətin bir hissəciyi kimi, ayrıca şəxsiyyət kimi dəyişməlidir. Əks təqdirdə o, yer üzündən silinib getməyə məhkumdur [1, s. 203].

Dünya iqtisadiyyatı və ətraf mühiti bir araya gətirməsi adına bu iş ilk qlobal modeldir. Bu işin ətraf mühit və inkişaf adına etmiş olduğu proqnozlar bütün dünyada əks-səda tapmış, iş 30 dilə çevrilərək milyonlarla surəti satılmışdır. Hesabatda məsələ olan nöqtələr milli və beynəlxalq arenada hələ də gündəmdəki yerini qoruyur ancaq bəzi təbəqələrlə resursların istehlakı və azalması kimi məsələlərdə bədbin yanaşma içində olduğuna dair dəyərləndirmələr aparılır. Bütün bunlar bir tərəfə qoyulsa, məhdud resurslarla sərhədsiz inkişafın mümkünsüzlüyünü vurğulayan bu hesabat yaşıl iqtisadiyyatın da elementi kimi qiymətləndirilir [6, s. 307].

Bu tədqiqatlara nümunə təşkil edəcək ikinci bir nəşr də, Beynəlxalq ətraf mühit hüququnun inkişafına təkan verən ən mühüm təşəbbüs Stokholm Konfransı olmuşdur. 1972-ci ildə Stokholmda BMT-nin ətraf mühit məsələsi üzrə konfransı keçirildi. Konfrans ətraf mühitin mühafizəsi haqqında bəyanat qəbul etdi və 5 iyun «Beynəlxalq ətraf mühitin mühafizəsi» günü elan olundu. Əgər mühitin hüquq yolu ilə qorunub inkişaf etdirilməsinə bir başlanğıc nöqtəsi olunacaqsa, şübhəsiz, ən uyğun kilometr daşı, 1972-ci ildə Stokholmda baş verən Birləşmiş Millətlər İnsan Ətrafı Konfransıdır. Beləliklə, ətraf mühit problemləri ilk dəfə beynəlxalq bir konfransın əsas mövzusu olur və bu təşəbbüs ilə birlikdə beynəlxalq ekologiya hüququ sahəsində yeni bir proses başladı [7, s. 352].

Ətraf mühit probleminin Beynəlxalq xarakter almasına ölkə, region, ümumbəşəri və qlobal səviyyədə baxmaq tələb olunur. Belə yanaşma ona görə gərəklidir ki, ətraf mühitin qorunması ümumbəşəri xarakterlidir. İnsanların əmək fəaliyyətinin predmeti sayılan yerüstü və yeraltı sərvətlər bütün dünya üçün gərəklidir. Dünya okeanı sərvətləri, iqlim və kosmik resurslar ümumbəşəri xarakter daşıyır. Belə elementlər qloballaşmanın vüsət alması imkanlarını daha da artırır. Nəticədə bütün dövlətlər üçün qorunması gərək olan vahid ekoloji məkan yaranır. Vahid qlobal əməkdaşlığın həyata keçirilməsi yollarının tapılmasına böyük ehtiyac vardır. Bu, hər şeydən əvvəl, cəmiyyət və ətraf mühit problemlərinin həllinin həyata keçirilməsi üçündür [3, s. 12-13].

Konfransda ölkələr öz daxillərində az inkişaf etmiş və inkişaf etmiş ölkələr kimi ayrıca gediblər, az inkişaf etmiş ölkələr ətraf mühit problemlərinin səbəbkarı olaraq inkişaf etmiş ölkələri işarə edərək həllin də onlar tərəfindən olması lazım olduğunu bildirmişlər. Ancaq öz içlərində yaşadıqları iqtisadi və ictimai proseslər az inkişaf etmiş ölkələrin də ekoloji problemlərə səbəb olduğu mövzusunda razılaşmışlar. Konfransda;

— Yaşayış sahələrində ətraf planlaşdırması və ətraf mühit idarəçiliyi
— Təbii ehtiyatlar və dənizlərin çirklənməsi
— Beynəlxalq səviyyədə ətraf mühitə zərərli maddələrin tanınması və nəzarəti

Ətraf mühit problemləri ilə bağlı təhsil, informasiya, sosial və mədəni siyasətlə Ətraf mühit hərəkətlərində milli təşkilatların mövcudluğu ilə bağlı müzakirələr aparılmışdır [3, s. 12-13].

Bunlardan başqa 11 dekabr 1997-ci ildə 192 dövlətin iştirakı ilə Yaponiyanın Kioto şəhərində iqlim dəyişiklikləri ilə bağlı sayca III konfrans keçirildi. Konfransın sonunda "İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolu" qəbul edildi. Protokolun 8 il sonra qüvvəyə mindi. Buna səbəb 25-ci maddə ilə əlaqələndirilir. Həmin maddəyə əsasən Konvensiya imzalayanların ən az 55-i, hansı ki, payına ümumi karbondioksid tullantılarının minimum 55%-i düşən inkişaf etmiş sənaye ölkələri qrupuna daxil olan ölkələr tərəfindən təsdiq edildikdən 90 gün sonra qüvvəyə minir. Bu göstərici 18 oktyabr 2004-cü ildə Rusiyanın protokola qoşulması ilə tamamlandı. Beləliklə, 16 fevral 2005-ci ildə protokol qüvvəyə mindi. ABŞ isə protokolu ratifikasiya etmədi. Kanada və İslandiya 2002-ci ildə

protokola qoşulan ölkələr oldu [4, s. 70].

Azərbaycan Respublikası isə 1995-ci ildə BMT-nin "İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyası"nı ratifikasiya etmiş, 2000-ci ildə Konvensiyaya əlavə olunan "Kioto protokolu"nu imzalamışdır. Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsi üçün "Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamı ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır. Konvensiyanın tərəfi kimi Azərbaycan iqlim dəyişmələrinin gözlənilən təsirinin azaldılmasına yönəlmiş milli və regional proqramların hazırlanması, həyata keçirilməsi və nəşr etdirilərək ictimaiyyətə çatdırılması kimi öhdəliklər götürmüşdür [4, s. 72].

XX əsrin sonunda insan-təbiət münasibətlərinin tənzimləndiyi davamlı cəmiyyətə keçid haqqında bir çox təlim və konsepsiyalar yaradılmışdır.

Hazırda dünya birliyi tərəfindən ən çox bəyənilən və tətbiq edilən inkişaf konsepsiyalarından biri "Davamlı inkişaf" konsepsiyasıdır. Bu konsepsiyanın yaranması və qəbul edilməsi BMT-nin təbiəti mühafizə fəaliyyəti ilə əlaqədar olmuşdur. Hələ 1984-cü ildə BMT Baş Katibinin təşəbbüsü ilə BMT nəzdində "Ətraf mühit və inkişaf" üzrə Beynəlxalq Komissiya yaradılmışdır. Norveçin sabiq Baş naziri xanım Qro Xarlem Brutland bu komissiyaya başçılıq etmişdir. Komissiyanın əsas vəzifəsi ətraf mühit və inkişaf üzrə uzunmüddətli strategiya 2000-ci ilə qədər və sonrakı dövr üçün müxtəlif ölkələrin davamlı inkişafını nəzərdə tuturdu [2, s. 24].

1984-cü ildən başlayaraq dünya alimlərinin ətraf mühit və inkişaf üzrə təkliflərini toplayan xanım Qro Xarlem Brutland 23 ölkənin ekspertlərinin köməyi ilə 1987-ci ildə "Bizim ümumi gələcəyimiz" adlı məruzə hazırladı və bu məruzəni BMT-nin Baş Asambleyasına təqdim etdi. "Bizim ümumi gələcəyimiz" adlı məruzənin əsas mahiyyətini Davamlı inkişaf konsepsiyası təşkil edirdi. Konsepsiyanın əsas məğzi: "Gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərinin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsi"ndən ibarətdir. "Bizim ümumi gələcəyimiz" adlı məruzə BMT Baş Asambleyasının təşəbbüsü ilə müxtəlif ölkələrə yayılmış və bir çox dillərdə kitab şəklində çap olunmuşdur [2, s. 24].

Nəticədə əsas tövsiyələri ətraf mühitin təmizlənməsi olan bu tədbirlər, mövcud ətraf mühit problemlərinin həlli üçün spesifik xarakterli həll təklifləri gətirmiş, lakin, istehsal və istehlak formalarında həyata keçirilməsi lazım olan bütöv bir dəyişikliyi ifadə etmə cəsarətini göstərə bilməmişdir. Halbuki, ümumiyyətlə, ekologiya hərəkatı, xüsusilə isə sosial ekologiya yanaşı, dövlətləri aşan ətraf mühit problemlərinin irəli gedərək, mövcud paradiqmanın ortaya çıxardığı təxribatı bütöv bir baxışla ələ almaq, insanın bugünkü təbiəti qəbul etməsinin hakimiyyətinə alternativ bir paradiqma yaratmaq iddiasında olmuşdur.

**Məqalənin aktuallığı.** Son zamanda dünya miqyasında ekoloji böhranın aradan qaldırılması yolları ilə bağlı aparılan işlərin həm öyrənilməsi və mənimsənilməsi mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Sosial ekoloji fəlsəfəsi tarixi baxımından ilk dəfə araşdırılmışdır və bu yenilik məqalənin məzmununda özünü göstərir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə sosial-ekoloji fəlsəfəsi baxımından Azərbaycanda ilk dəfə olaraq araşdırılmışdır. Dissertasiya materiallarından ali məktəblər üçün dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasında, fəlsəfə tarixi, sosial ekologiya üzrə araşdırmalarda istifadə etmək olar.

## Ədəbiyyat

1. Şükürov A. Sosial Ekologiya Bakı: Şəfəq. İM, 1999.
2. Hüseynov S. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı: Adiloğlu, 2003. 264 s.
3. Güzin Arat, Murat Türkeş, Çevre ve Sürdürülebilir Kalkınma Paneli, 2016.
4. Nuriyeva Ayla Eldəniz qızı. Dünya böhranı və ekoloji problemlər. Magistr dissertasıyası, Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 2015.
5. Mustafa ÖZÇAĞ, Hakan Hotunluoğlu, Kalkınma Anlayışında Yeni Bir Boyut: Yeşil Ekonomi, CBÜ Sosyal Bilimler Dergisi, Cilt:13, Sayı: 2, Haziran 2015.
6. Ceren Aksu, Güney Ege Kalkınma Ajansı, Sürdürülebilir Kalkınma ve Çevre, 2011.
7. Özdek Yasemin, İnsan Hakkı Olarak Çevre Hakkı, Todaif Yayını, 1993, Ankara, 2001.

**Ф. Курт**

## Философский анализ государственного подхода к экологическим проблемам

## Резюме

Автор приходит к выводу, что философ создал социально-экологическую парадигму, которая предусматривает найти решения всех социальных проблем за пределами охраны окружающей среды.

**F. Kurt**

## Philosophical analysis of the state's approach to ecological problems

## Summary

We can make like this conclusion that from the side of Social ecology he created the paradigm which finds solution not only to environmental but also social problems.

**Redaksiyaya daxil olub:** 03.01.2018